BDU xüsusi buraxılış | 2 | BAKI UNİVERSİTETİ | 9 oktyabr 2020-ci il, cümə | 525-ci qəzet

# Tələbə evi: sabaha gedən yolun yeni başlanğıcı



Azərbaycanın dünyaya inteqrasiya olduğu bu günlərdə hər şey inteqrasiyaya uyğun olmalıdır. Ölkəmiz bugünkü hərtərəfli islahatları ilə artıq qabaqcıl ölkələrin təcrübəsinə qovuşmaqdadır. Bu gün Prezident İlham Əliyev ölkəmizdə intenesiv bir islahatlar məktəbi yaratmışdır. Bu islahatlar sistemində gənc kadrlara xüsusi qayğı göstərməkdədir. Aydındır ki, xalqımızın, dövlətimizin və birbaşa Prezidentimizin etibarlı kadr mənbəyi kimi qiymətləndirdiyi gənc mütəxəssislər təhsil sistemində formalaşır. Azərbaycan dövlətinin təhsilimizə bu qədər çoxtərəfli qayğısı milli kadrlarımızın formalaşması üçün artıq xarici universitetlərə üz tutması prosesi səngiməkdədir. Və yəqin hər kəs belə bir faktı təsdiqləyir ki, ali məktəblər sistemində təhsilin keyfiyyəti ilə bərabər, bir sıra digər məsələlər də var. Bu sırada tələblərin yaşayış üçün yataqxanaların təmin edilməsi mühüm yer tutur. Əlbəttə, bəzi universitetlərimizdə yataqxana dediyimiz binaların köhnədən qalanlarının əsaslı təmiri, yenilərinin tikilib istifadəyə verilməsi prosesləri diqqət mərkəzindədir. Lakin Bakı universitetlərinin əksəriyyətində belə obyektlərin hələ də problem altında olduğu heç kimə sirr deyil. Bu sırada Bakı Dövlət Universiteti də istisna deyil. Bu Universitetin sovet dönəmində çox rahat yataqxanaları olmuşdur. Lakin sonralar bu binalar mənfur Ermənistanın işğal etdiyi Qarabağ torpaqlarından köçkün düşmüş soydaşlarımızın müvəqqəti yaşayış yerinə çevrilmiş, binalar deformasiyaya uğramış, tamamilə yararsız hala düşmüşdür. Bu da məlumdur ki, Azərbaycan Prezidentinin şəxsən diqqətində olan qaçqın və köçkünlərimiz bir sıra rayonlarımızda olduğu kimi, Bakı şəhərində də yeni evlərlə təmin edilmişlər. Çox təəssüf ki, qaçqın və köçkünlərin artıq çoxdan tərk edib yeni rahat mənzillərə köçməsinə, bununla da Universitet yataqxanalarını boşaltmalarına baxmayaraq, həmin yataqxanların olsa-olsa maketi qalmış və burada heç bir təmir işi aparılmamışdır. Bakı Dövlət Universitetinin yeni rəhbərliyi yataqxana problemini pirioritet məsələ kimi önə çəkmiş və onun həllinə başlamışdır. Universitetin köhnə yataqxanalar yerləşən ərazisindəki binalardan biri tamamilə yenidən qurulub. Onun içərisi, fasadı və həyətyanı sahəsi müasir arxitektura səviyyəsində qurulmuş, tələbələrin istifadəsinə verilmək ərəfəsindədir.

Burada maraqlı faktlardan biri budur ki, Universitet rəhbərliyi hamını çoxdan narahat edən yataqxana leksikonundan imtina edərək bu yeni binanın üzərinə lap uzaqdan göz oxşayan "Tələbə evi" adını yazmışdır. Bizə elə gəlir ki, bu, "yataqxanalar" üçün də vacib bir yeniliyin başlanğıcı olacaq. Ona görə ki, "yataqxana" sözü tələbələrin dörd illik ömür zamanını yaşadıqları belə binaların semantikasını-anlamını doğru ifadə etmir. Xarici dillərdə həmin terminə diqqət edək, rus dilində obşejitil - yəni ümumi yaşayışxana, ingilis dilində hostel-ümumi yaşayış yeri və s.

Aydındır ki, tələbələr belə məkanda yalnız yatmaq, gecələmək üçün deyil, Universitetdə keçirdikləri illəri hərtərəfli yaşamaqdadırlar. Ona görə də bu binalara Tələbə evi adı çox yaraşır və məzmunu daha dolğun ifadə edir.

Bakı Dövlət Universitetinin "Tələbə evi"nin bütün parametrləri ən müasir beynəlxalq təcrübəyə cavab verir. Biz inanırıq ki, Azərbaycan ali məktəblərinin flaqmanı adlandırdığımız Bakı Dövlət Universitetinin "Tələbə evi"nin ətrafındakı köhnə yataqxanalar lap yaxın gələcəkdə ayrıca kampusa çevriləcək. Və hətta bu Universitetə divident gətirən xarici tələbələrin də sayı məhz bu fakta görə indikindən qat-qat çox olacaq. Uğur olsun, doğma Universitetimiz. Yeni rəhbərliyin yeni uğurları sənin yoluna içıq saçsın.

Yəqin ki, Universitetimizin yataqxanalar ərazisində gecəyə işıq saçan bu binanın yanından keçən hər kəs xüsusi ilə gecə burada işığa qərq olmuş "Tələbə evi"ni hər dəfə görəndə yeniliyin nə olduğunu da hiss edir. "Tələbə evi"nə qalxan uzun pillələrinin ətrafı lampalarla işıqlandırılmış, həyətdə yeni yaşıllıq salınmış, səliqəli göz oxşayan çoxsaylı avtomobillər üçün rahat dayanacaq inşa edilmişdir. "Tələbə evi"nin həyətinə küçədən düzəldilən geniş qapısı bir tərəfdən Universiteti simvolizə etməsi ilə, digər tərəfdən milli ornametlə bəzədilmiş görünüşü ilə hər kəsin qəlbini oxşamaqdadır.

Belə bir möhtəşəm qoşa qapı girəcəyi bu həyətin lap yaxın gələcəkdə kampusa çevriləcəyini vəd etməkdədir.

**Mehdizadə Günel,**
**BDU-nun Jurnalistika fakültəsinin məzunu**